# Qarabağın tərlanı

**Gəncliyə Yardım Fondunda əmək qəhrəmanı, Milli Məclisin I çağırış deputatı, Prezidentin fərdi təqaüdçüsü Tərlan Musayevaya həsr olunan kitabın təqdimatı keçirilib.**



Adı dillər əzbəri olmuş məşhur mexanizator, pambıq ustasının 70 illik yubileyi münasibətilə hazırlanmış "Ulu öndərin "canlı əsəri" Tərlan" kitabının müəllifi yazıçı Vaqif Osmanlı, redaktoru nəşrin təşəbbüskarı olan Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin rəhbəri Güllü Eldar Tomarlıdır. Kitabda Tərlan Musayevanın ömür yolundan, ictimai fəaliyyətindən bəhs edilir.

Təqdimat mərasimində Milli Məclisin deputatı Razi Nurullayev, şəhid anası Sevil Hüseynova, şəhid bacısı, şair Lalə İsmayıl, Əməkdar mədəniyyət işçisi Çimnaz Əliyeva, politoloq, yazıçı Reyhan Mirzəzadə, Vətən müharibəsi qazisi, şair Rafael Tağızadə, Brilyant Atəş, Arzu Yaqubqızı və başqaları çıxış ediblər. Natiqlər qəhrəmanı yubileyi münasibətilə təbrik ediblər. Qeyd olunub ki, Tərlan Musayeva 18 yaşında pambıq tarlasında "dəmir at"ın sükanı arxasına keçəndə, 21 yaşından 10 il dalbadal Sevil Qazıyeva adına və digər mükafatların qalibi olub, 23 yaşında SSRİ Ali Sovetində deputat kimi Azərbaycanın 9 rayonunu təmsil edib. Əmək uğurlarına görə ordenlərlə, Xalq Təsərrüfatı Nailiyyətləri sərgilərinin medalları ilə təltif olunub. Onun şəninə mahnılar, poemalar, şeirlər yazılıb. Bütün bunlar barədə hekayətlər yeni kitabın maraqlı səhifələrini təşkil edir.

Tərlan Musayevanın müxtəlif mövzulardakı saysız-hesabsız müsahibələri, çıxışları da topluda yer alıb. Kitab onun 70 illik zəngin və mənalı ömrünə müəllifin özünəməxsus prizmadan baxışıdır.

Mərasimdə Tərlan Musayeva onun haqqında yazılmış kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib, tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlıq edib. Özünün keçdiyi zəhmət yoluna qısa nəzər salaraq deyib ki, Ulu öndər onun qazandığı uğurlara hər zaman xüsusi diqqət və qayğı göstərib və yüksək qiymətləndirib. Qazandığı bütün uğurlara görə Ümummilli liderin ruhuna borclu bildiyini xüsusi olaraq vurğulayıb. Yubilyar gəncləri zəhmətdən qorxmamağa, daim əməksevər olmağa səsləyib, çəkilən zəhmətin mütləq öz bəhrəsini verəcəyinə əminliyini ifadə edib.

Təqdimat mərasiminin yekununda kitab müəllifin imzası ilə iştirakçılara təqdim olunub.

Əli Nəcəfxanlı

Xalq qəzeti .- 2025.- 26 yanvar (№ 17). - S.10.